AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ (UNEC)**

**Təsdiq edirəm:**
**"İctimai idarəetmə və sosial innovasiyalar"**
**kafedrasının müdiri: i.f.d., dos. E.Q.Məmmədov**
**12 sentyabr 2025-ci il**

# "DÖVLƏT IDARƏÇILIYİNDƏ ETİKA" fənni üzrə
# İŞÇİ TƏDRIS PROQRAMI
# (Sillabus)

## I. Fənn haqqında məlumat

**Fənnin kodu:** **00244**
**Fənnin növü:** əsas
**Tədris ili:** **2025/2026**
**Tədris semestri:** **Yaz**
**Fənnin tədris forması** **əyani**
**Fakültə:** **İqtisadiyyat və idarəetmə**
**Qrup:** **250, 251**
**Tədris yükü:** **60 saat (mühazirə/məşğələ -30/30)**
**Kredit sayı:** **6 (altı)**
**Kafedra:** **«İctimai idarəetmə və sosial innovasiyalar»**

## II. Müəllim haqqında məlumat

**Fənni tədris edən müəllim:** **Faiq Əhmədov (baş müəllim)**
**E-mail ünvanı:** ***Faiq.ahmadov@unec.edu.az***

**İş telefonu:** **(012) 564-37-05**

**Tələbələr üçün qəbul vaxtları: çərşənbə axşamı, saat 12.00-14.00**

**III.Fənnin təsviri.** Dövlət qulluqçuları qərar verərkən və xidməti vəzifələrini icra edərkən bəzən müəyyən dilema ilə qarşılaşa bilər və hər hansı bir qərarın qəbul edilməsində müəyyən çətinliklərlə üzləşə bilərlər. Bu hallarda adətən belə bir sual yaranır: xidməti vəzifələrini vicdanlı, ədalətli və qərəzsiz şəkildə necə həyata keçirmək olar? Dövlət qulluqçularının xidməti vəzifələrini icra edərkən etik qaydalara riayət etməsi "Dövlət qulluğu haqqında"Azərbaycan Respublikası Qanununda dövlət qulluqçusunun əsas vəzifəsi kimi müəyyən edilmişdir Hər bir civil, mədəni ölkənin dövlət qulluqçuları işgüzar davranışlariında etik normalara əməl etməli və özlərinin peşəkar fəaliyyəti və etik davranışları ilə xalqın dövlət orqanlarına, dövlət qulluqçularına etimadlarını daha da artırmalıdırlar. Bu baxımdan bu fənnin tədrisi olduqca aktualdır.

**IV.Fənnin məqsəd və vəzifələri.** Bu gün dövlət qulluğunda etik məsələlər mühün əhəmiyyət kəsb edir. **Fənnin əsas məqsədi** tələbələrə dövlət qulluqçusunun xidməti fəaliyyəti ilə bağlı nəyin doğru, nəyin pis olduğunu təhlil etmək və dövlət qulluqçularının etik davranış prinsiplərini və qaydalarını geniş çəkildə izah etməkdən ibarətdir.

Etik davranış prinsiplərinin əsas məqsədi cəmiyyətdə və dövlətdə sui istifadəni və korrupsiya hallarını aradan qaldırmaq və vicdanlılıq prinsipinin həyata keçirilməsini təmin etməkdən ibarətdir. Belə ki, bəzən bu neqativ halların olması xalqın dövlət orqanlarına olan inamına zərbə vurur. Belə davranış xalqa aşağı və keyfiyyətsiz xidmətin göstərilməsinə gətirib çıxarır. Gələcəyin dövlət qulluqçularının xidməti davranışının keyfiyyətli və düzgün olmasını təmin etmək üçün dövlət qulluğunda etika məsələlərini, etik davranış prinsiplərini yaxşı bilmələri lazımdır.Bütün bu deyilənlərlər fənnin əsas məqsədini təşkil edir.

**Fənnin qarşısında aşağıdakı vəzifələr durur:**

-Dövlət qulluğunda etikanın, etik davranış qaydalarının əhəmiyyətini tələbələrə çatdırmaq.

-Ümumiyyətlə, mədəniyyətin iqtisadi mahiyyətini açıqlamaq; mədəniyyətin obyektiv-tarixi inkişaf amillərini, mədəniyyətin effektivlik formulunu tələbələrə izah etmək.

-Dövlət idarəçiliyi mədəniyyətinin mahiyyətini və onun əsas elmi problemlərini

təhlil etmək.

-Müasir dövlət qulluğu sisteminin mahiyyətini, onun qarşısında duran vəzifələri, prinsipləri izah etmək.

-"Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının qanunundan irəli gələn etik davranış qaydaları və prinsipləri ilə tələbələri taniş etmək.

-Davranışın etiklilik səviyyəsinin yüksəldilməsi üçün tədbirlər kompleksini tələbələrə izah etmək.

-İşgüzar danışıqların və müşavirələrin aparılması qaydalarını, eləcə də işgüzar ünsiyyət qaydalarını tələbələrlə araşdırmaq.

-Təşkilatda münaqişələrin  və streslərin idarə edilməsi ilə bağlı tələbələrə effektiv informasiya vermək.

-Liderlik mədəniyyətinin mahiyyətini və zəruriliyini izah etmək.

-Etik nöqteyi-nəzərdən mürəkkəb olan qərarlaın əaslandırılması üçün istifadə olunan etika konsepsiyalarını təhlil edərək izah etmək.

## V. Fənnin tədris metodologiyası.

Bu fənnin tədrisi prosesində mühazirələrin oxunması, interaktiv müzakirələrin aparılması, komanda şəklində layihələrin icrası, kiçik qruplarda iş, işgüzar

oyunlar, xüsusi nümunələrin (keys-stadilər) öyrənilməsi və təhlili, esse yaxud sərbəst işlərin yazılması və test tapşırıqların yerinə yetirilməsi kimi geniş çeşiddə tədris və təlim üsullarından istifadə edilir.

Bundan əlavə tədris və təlim prosesində xarici və yerli iqtisadi ədəbiyyatdan, habelə beynəlxalq və yerli mediadan (internet resurslarından) götürülmüş məqalələrin, real nümunələrin və xüsusi keyslərin təhlilinə, müzakirəsinə və məntiqi nəticələr çıxarılmasına xüsusi diqqət ayrılacaq. Verilən biliklərin tətbiqi bacarıqlarının formalaşdırılması üçün tələbələr mövzuya uyğun seçilmiş tapşırıqları həll edəcəklər.

Hər bir yeni mövzunun tədrisi öncəsi tələbələr müəyyən olunmuş mətnləri və onlara təqdim edilmiş (tapşırılmış) digər qiraət materialları ilə tanış olmalıdırlar.

**VI. Öyrənmənin nəticələri:** Kursun tədrisi başa çatandan və bütün mövzular mənimsənildikdən sonra tələbələr:

## Bilməlidirlər:

* dövlət qulluğunda etikanın rolunu;

* dövlət idarəçiliyinin mahiyyətini;

* etik fikir və onun təkamülünün əsas mərhələlərini;

* dövlət qulluğu sisteminin mahiyyətini;

* dövlət qulluqçularının etik davranış qaydalarını;

* dövlət qulluqçularının etik davranış qaydalarının həyata keçirilməsinə nəzarətin təşkili formalarını;

* davranışın etiklilik səviyyəsinin yüksəldilməsi üçün tədbirlər kompleksini;

* liderlik mədəniyyətini;

* üşgüzar ünsiyyət etiketini;

* münaqişələrin idarə edilməsi metodlarını və münaqişəyə yanaşmaları;

* etika konsepsiyalarını.

## Bacarmalıdırlar:

- dövlət qulluğunda müxtəlif etika konsepsiyalarını fərqləndirməyi;
- dövlət qulluğunda etik davranış qaydalarını tətbiq etməyi;
- davranışın etiklilik səviyyəsinin yüksəldilməsi üçün tədbirlər kompleksini tətbiq etməyi;
- işgüzar ünsiyyət etiketini  tətbiq etməyi bacarmağı;
- münaqişərin idarə edilməsi mexanizmini tətbiq etməyi;
- sosial məsuliyyət layihələrini işləyib hazırlamağı;

işgüzar danışıqların  və müşavirələrin keçirilməsi ilə bağlı təcrübi səriştəyə.

**VII. Prerekvizitlər**

Fənnin tədrisi üçün öncədən tədrisi zəruri olan fənn yoxdur.

**VIII.Fənnin mühazirə mövzuları.**

Fənn-   bölmədən və 15 mühazirə mövzusundan ibarətdir. 15 mövzunun hər birinə 4 saat (2 saat mühazirə, 2 saat seminar) ayrılmışdır.

**Mövzu 1.** "Dövlət idarəçilik etikası" fənninə giriş.

**Mövzu 2 .** Dövlət idarəçilik mədəniyyəti.

**Mövzu 3.**  Etik fikir və onun təkamülünün əsas mərhələləi.

**Mövzu 4.** Müasir dövlət qulluğu sistemi və dövlət qulluqçularına olan əsas tələblər.

**Mövzu 5.**  Dövlət qulluqçularının etik davranış qaydaları.

**Mövzu 6**. Etik davranış qaydalarının həyata keçirilməsinə nəzarət.

**Mövzu 7.** Təşkilati mədəniyyət

**Mövzu 8.** Davranışın etiklilik səviyyəsinn yüksəldilməsi tədbirləri.

**Mövzu 9.** Etika və münaqişələr.

**Mövzu 10.**Etika və sosial məsuliyyət.

**Mövzu 11.** İşgüzar ünsiyyət etiketi

**Mövzu 12.** İşgüzar danışıqların və müşavirələrin aparılmasının təşkili və etika.

**Mövzu 13.** İşgüzar etika konsepsiyaları.

**Mövzu 14.** Liderlilik

**Mövzu 15.** İdarəetmə mədəniyyətinin təkmilləşdirilməsi.

## IX. Fənnin mühazirə mətnləri

Fənn üzrə bütün mühazirə mətnləri və təqdimatlar, müzakirə sualları və tapşırıqlar, habelə zəruri məşğələ materialları elektron formatda Universitetin saytında "Virtual universitet" bölməsində (www.vu.aseu.az ) yerləşdirilir.

## X.Əsas dərslik və ədəbiyyat

**Əsas ədəbiyyat:**


*1.Vüqar Əsgərov.**Dövlət qulluğunda etika.** Baki, 2014.*

*2.Rəna Səfərəliyeva, Sanar Məmmədov, Vaqif Qaziyev. **İşgüzar etika.**Bakı, 2004*

*3.М.В.Капкан, Л.С.Лихачева. **Деловой этикет.**Екатеринбург, 2017.*

*4.Sevinc Şahhüseynova.Etika.Bakı, 2009*


**Əlavə ədəbiyyat:**


*1.Fuad Məmmədov.**İdarəetmə mədəniyyəti.** Bakı,2013*

*2.Ramazan Şabanov, Ronald Şabanov. **Azərbaycanda müasir dövlət qulluğu modeli axtarışı.**Bakı, 2004*

*3.Rəşad Səfərov.**Dövlət qulluğu.**Bakı, 2014*


Hər bir mövzu üzrə müəllimin mətnləri və təqdimarları elektron kabinetə yerləşdirilir.Hər bir mövzu ilə bağlı müəllim əlavə olaraq xüsusi ədəbiyyat təklif edə bilər.

## XI. Mövzuların məzmunu və tədris-tematik bölgüsü.

| S/S | Mövzuların adı | Mövzuların əsas məzmunu | Ədəbiyyat |
|---|---|---|---|

| | | | |
|---|---|---|---|
| **1** | **“Dövlət idarəçilik etikası” fənninə giriş** | Fənnin mahyyəti, predmeti və tədrisinə olan zəruriyyət.Fənnin qarşısında duran əsas vəzifələr.Dövlət qulluqçularına olan əsas tələblər. | 1.Vüqar Əsgərov.**Dövlət qulluğunda etika.** Baki, 2014.səh.5-13<br>2FuadMəmmədov<br>**İdarəetmə mədəniyyəti.**<br>Bakı,2013Fəsil I |
| **2** | **Dövlət idarəçilik mədəniyyəti** | Mədəniyyət anlayışı və onun obyektiv-tarixi inkişaf amilləri. Mədəni insan formulu. Demokratik idarəetmə: onun vəzifələri, effektivliyinin tərkib hissələri. Dövlət idarəçiliyi mədəniyyəti. | 1.Vüqar Əsgərov.**Dövlət qulluğunda etika.** Baki, 2014.səh.13-16<br>2FuadMəmmədov<br>**İdarəetmə mədəniyyəti.**<br>Bakı,2013Fəsil 2 |
| **3** | **Etik fikir və onun təkamülü mərhələləri** | Etika fəlsəfi elmdir. Fəlsəfi dünyagörüş-mifoloji dünyagörüşün tərkib hissəsi kimi. Etika-əxlaq haqqında elmdir. Əxlaqın mahiyyəti və əsas funksiyaları. | 1.Vüqar Əsgərov.**Dövlət qulluğunda etika.** Baki, 2014.səh.17-20<br>2FuadMəmmədov<br>**İdarəetmə mədəniyyəti.**<br>Bakı,2013FəsilI 3 |
| **4** | **Müasir dövlət qulluğu sistemi və dövlətqulluqçularına olan əsas tələblər.** | Dövlət qulluğu nədir? Müasir dövlət qulluğu sisteminin mahiyyəti.<br>Dövlət qulluğunun əsas vəzifələri, prinsipləri.Dövlət qulluqçusu kimdir? Onun vəzifələri, hüquqları və məsuliyyəti. | 1.Vüqar Əsgərov.**Dövlət qulluğunda etika.** Baki, 2014.səh.13-16<br>2FuadMəmmədov<br>**İdarəetmə mədəniyyəti.**<br>Bakı,2013FəsilI4<br>3.Dövlət Qulluqçularının Etik Davranış Qaydaları haqqında” qanun |
| **5** | **Dövlət qulluqçularının etik davranış qaydaları** | Dövlət qulluğunda etikanın əhəmiyyəti.<br>“Dövlət qulluqçularının etik davranış qaydaları haqqında” Azərbaycan Respublikasının Qanunu və onun əsas məqsədləri.Dövlət qulluqçularının etik davranış qaydalarının geniş təsnifatı.<br>Dövlət qulluqçularının qarşılaşa bıləcəkləri etik dılemalar. | 1.Vüqar Əsgərov.**Dövlət qulluğunda etika.** Baki, 2014.səh.29-84<br>2FuadMəmmədov<br>**İdarəetmə mədəniyyəti.**<br>Bakı,2013Fəsil 5 |
| **6** | **Etik davranış qaydalarının həyata** | Qanunvericilikdə təsbit olunmus etik davranış prinsipləri.Etik davranış qaydalarına əməl olunmasına nəzarət . | 1.Vüqar Əsgərov.**Dövlət qulluğunda etika.** Baki, 2014.səh.86-92 |

| | | | |
|---|---|---|---|
| | **keçirilməsinə nəzarət** | Azərbaycan Respublikası Prezident yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya .Dövlət orqanının rəhbəri Etik müvəkkillər .Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət vəSosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | 2FuadMəmmədov **İdarəetmə mədəniyyəti.** Bakı,2013FəsilI 6 |
| **7** | **Təşkilati mədəniyyət** | İdarəetmə mədəniyyətinin mahiyyəti. Təşkilati mədəniyyət : onun mahiyyəti və onun növləri.<br>Təşkilatı mədəniyyətin düzgün formalaşmasını xarakterizə edən göstəricilər. | 1.Vüqar Əsgərov.**Dövlət qulluğunda etika.** Baki, 2014<br>2FuadMəmmədov **İdarəetmə mədəniyyəti.** Bakı,2013FəsilI7 |
| **8** | **Davranışın etiklilik səviyyəsinin yüksəldilməsi tədbirləri** | Etik normativlər. Etika komitələri. Etik təftişlər. Etik hesabatlar. Etik davranışa öyrədilmə.Etika kodeksləri:korporativ etika kodeksi; peşəkar etika kodeksi; milli etika kodeksi;beynəlxalq etika kodeksiş | 1.Vüqar Əsgərov.**Dövlət qulluğunda etika.** Baki, 2014.səh.92-100 2FuadMəmmədov **İdarəetmə mədəniyyəti.** |
| **9** | **Etikavə münaqişə-lər** | Münaqişə nədir?Münaqişələrin funksiyaları.Təşkilatda münaqişələrin növləri.Münaqişələrin səbəbləri, formulu.Münaqişələrin idarə ediləsi.Münaqişələrin həll edilməsi metodları. | 1.Vüqar Əsgərov.**Dövlət qulluğunda etika.** Baki, 2014.səh.92-100<br>2FuadMəmmədov **İdarəetmə mədəniyyəti.** Bakı,2013Fəsil 8 |
| **10** | **Etika və sosial məsuliyyət** | Hüquqi və sosial məsuliyyət.Sosial məsuliyyətin xeyrinə və əleyhinə olan əsas arqumentlər. | 1.Vüqar Əsgərov.**Dövlət qulluğunda etika.** Baki, 2014.səh.13-16 2FuadMəmmədov **İdarəetmə mədəniyyəti.** Bakı,2013FəsilI2<br>3.Şahbazov K.və b. Menecment.Bakı,2005 Fəsil 3.Səh.16 |
| **11** | **İşgüzar ünsiyyət etiketi** | Kommunikasiya və ünsiyyət anlayışları.Kmmunikasiyanın təşkilatda növləri.Kommunikasiya prosesi və onun elementləri.Kommunikativ maneələr.Ünsiyyətin formaları.Ünsiyyəti | 1.Vüqar Əsgərov.**Dövlət qulluğunda etika.** Baki, 2014.səh.13-16<br>2FuadMəmmədov |

| | | | |
|---|---|---|---|
| | | təkmilləşdirməklə bağlı tövsiyyələr. | **İdarəetmə mədəniyyəti.** Bakı,2013FəsilI2 |
| **12** | **İşgüzar danışıqla- rın, müşavirələrin aparılmasının təşkili və etika.** | İşgüzar müşavirələrin təşkili və aparılması texnologiyası. Işgüzar danışıqların aparılmasında istifadə edilən metodlar.İşgüzar etiketin qaydaları | 1.Vüqar Əsgərov.**Dövlət qulluğunda etika.** Baki, 2014.12-ci bölüm<br>2FuadMəmmədov<br>**İdarəetmə mədəniyyəti.** Bakı,2013Fəsil I2 |
| **13** | **İşgüzar etika konsepsiyaları** | Utilitarist yanaşma. Fərdiçilik yanaşması.Mənəvi-hüquqi yanaşma.Ədalətlilik yanaşması Ədalətlilik formalar. | 1.Vüqar Əsgərov.**Dövlət qulluğunda etika.** Baki, 2014.səh.27-49<br>2FuadMəmmədov<br>**İdarəetmə mədəniyyəti.** Bakı,2013Fəsil səh.30-45 |
| **14** | **Liderlilik** | İdarəetmə və liderlik mədəniyyəti anlayışı. Liderin idarəetmə funksiyası və uslubu. Liderin keyfiyyətlərinə qoyulan tələblər.Liderliyin effektivliyi.Robin Şarmanın liderlik mədəniyyəti prinsipləri.Deyl Karneginin liderlər üçün tövsiyyə etdiyi insanlara təsir etməyin 9 qaydası. | 1.Vüqar Əsgərov.**Dövlət qulluğunda etika.** Baki, 2014.səh.13-16<br>2FuadMəmmədov<br>**İdarəetmə mədəniyyəti.** Bakı,2013FəsilI12 |
| **15** | **İdarəetmə mədəniyyətinin təkmilləşdiriləsi** | Dövlət idarəçiliyi məqsədi, ona qarşı olan tələblər. Məqsədlərin iyerarxiyası.<br>Strateji dövlət idarəçiliyi.<br>Dövlət idarəçiliyinin effektivliyinin giymətləndirilməsi və onun təkminləşdirilməsi. | 1.Vüqar Əsgərov.**Dövlət qulluğunda etika.** Baki, 2014.səh.27-31<br>2FuadMəmmədov<br>**İdarəetmə mədəniyyəti.** Bakı,2013,Fəsil13 |

**XII.Seminar-məşğələlər. Hazırlıq və qiymətləndirmə.** Seminar-məşğələ dərslərində tələbə öz fikirlərini məntiqi ardıcıllıqla ifadə və izah etməyi, habelə arqumentlərlə əsaslandırmağı bacarmalıdır. Buna nail olmaq üçün tələbə:

1) Seminar məşğələsinin hər bir mövzusu üzrə müzakirəyə çıxarılan suallarla diqqətlə tanış olmalı;
2) Müvafiq mühazirə materiallarını diqqətlə öyrənməli;

3) Mövzu üzrə tövsiyə edilən ədəbiyyatı oxumalı və öyrənməli;
4) Seminar məşğələsində müzakirəyə çıxarılan hər bir sual üzrə qısa çıxış hazırlamalı;
5) Mövzu üzrə verilən praktik tapşırıqları və məsələləri yerinə yetirməklə praktik bacarıqlara yiyələnməlidir.

Tələbə semestr ərzində 100 bal toplamalıdır. 20 bal seminar (məşğələ) dərsində toplanır. Tələbə seminar balını gündəlik olaraq dərsdə aktivlik göstərməklə toplayır. Tələbə hər 10 bal qiymətləndirildikdə yekunda hesabına 5 bal toplayır. Beləliklə tələbə dərslər zamanı ən azı 4 dəfə qiymət almalıdır ki, cəmi 20 bal toplamış olsun. Tələbənin dərsə davamiyyəti qeydə alınır. Davamiyyət tələbənin aktivlik balının toplanmasında əhəmiyyət kəsb edir.

Tələbənin məşğələdəki hər bir cavabı 10 ballıq sistem üzrə 0-10 bal arasında (maksimum 10 bal olmaqla) qiymətləndirilir. Semestrin sonunda smestr ərzində tələbənin bütün cavab balları toplanır və tələbənin cavablarının ümumi sayına bölünməklə orta qiymət (bal) hesablanır.

**XIII. Sərbəst işlər (Qrup işi):** nəzərdə tutulmayıb.

**XIV. Sərbəst işlər: tələblər və qiymətləndirmə**

Semestr ərzində tələbələrə 1 (10 ballıq), 2 (hər biri 5 ballıq) yaxud 10 (hər biri 1 ballıq) sərbəst iş tapşırığı verilir. Sərbəst işlər tələbələr tərəfindən təkbaşına və ya qrup işi formasında işlənə bilər. Sərbəst iş çap və ya elektron formada, yaxud əlyazma şəklində təhvil verilir.

Sərbəst işlərin qiymətləndirilməsi onların sayından asılı olaraq həyata keçirilir:

- 1 ballıq sərbəst işlər hər bir tələbə tərəfindən fərdi qaydada yerinə yetirilir. Bu işlər bir qayda olaraq fənndə tədris olunan mövzulara aid olur. Tələbələr müvafiq mövzunu öyrənməli və həmin mövzu ilə bağlı özlərinin fikirlərini sərbəst şəkildə (esse kimi) yazmalıdırlar. Belə sərbəst işlərin hər biri yazılı formada - word faylı formatında (şrift 12), həcmi ən azı 1,5-2 səhifə həcmində olmaqla (amma 4 səhifədən çox olmamaqla) - tələbənin fərdi

kabinetinə yüklənir. Məzmunundan asılı olaraq belə işlər «0» və ya «1» balla qiymətləndirilir. İş «0» balla qiymətləndirildikdə müəllim bunun səbəbini izah etməlidir;

- 5 və 10 ballıq sərbəst işlər tələbələrə fərdi və ya qrup işi kimi tapşırıla bilər. Belə işlərdə konkret mövzular üzrə araşdırmanın aparılması yaxud referatın işlənilməsi tələb oluna bilər. Belə araşdırmalar zamanı tələbələr fənnin mövzularından öyrəndikləri bilikləri və əldə etdikləri bacarıqları həmin tədqiqatlarda istifadə (tətbiq) etməyə çalışmalıdırlar. Araşdırmalar zamanı tələbələr ortaya çıxan çətinlikləri müəllimlə müzakirə edə və ondan məsləhət ala bilərlər. Belə işlər yazılı şəkildə word faylı formatında yaxud Power Point formatında təqdimat formasında, qrupun bütün üzvlərinin adı qeyd edilməklə, qrupun hər bir üzvünün fərdi kabinetinə yüklənir. Bu cür işlər, müvafiq olaraq, 0-dan 5-dək yaxud 0-dan 10-dək balla qiymətləndirilir. Sərbəst işin (araşdırmanın) hazırlanmasında qrup üzvlərinin fərdi töhfələri fərqli olarsa, qiymətləndirmədə bu nəzərə alınır. Aşağı balla qiymətləndirmələr zamanı müəllim bunun səbəbini tələbənin fərdi kabinetində izah edir.

Sərbəst işlərin yerinə yetirilməsi Universitetdə müəyyən edilmiş qaydalar çərçivəsində fənni tədris edən müəllimlə tələbələr arasında əldə olunan razılığa uyğun olaraq həyata keçirilir. Sərbəst işlərin qiymətləndirilməsində şəffaflığı təmin etmək müəllimin vəzifə borcudur.

## XV. Dərsə davamiyyət

Tələbə bütün mühazirə və seminar dərslərində fəal iştirak etməlidir. Tələbənin dərsə davamiyyəti 10 ballıq sistem üzrə qiymətləndirilir. Tələbənin iştirak etmədiyi dərslərin sayı onun davamiyyət qiymətinə (balına) təsir edir: buraxılmış hər 3 dərs (6 saat) 1 balın itirilməsi ilə nəticələnir. Tələbə fənn üzrə ümumi tədris yükünün 25%-dən çox (14 saatdan çox) dərs buraxarsa, o, yekun imtahana

buraxılmır. Bu halda tələbə bu fəndən krediti qazanmır və onun fənn üzrə akademik borcu qalır

**XVI. Aralıq qiymətləndirmə.**

Fənnin tədrisi prosesində tələbənin dərslərdəki cari fəallığı (mühazirədəki fəallıq, seminar-məşğələdə cavabları, qrup işlərində iştirakı və s.) 10 ballıq sistemlə 0-10 bal arasında qiymətləndirilir.

Fənnin tədrisi prosesində tələbənin əldə etdiyi bilik və bacarıqları 2 dəfə kollokvium keçirilməklə qiymətləndirilir. Kollokviumlar, müvafiq olaraq, tədrisin birinci və ikinci ayı başa çatdıqdan sonra yalnız həmin dövrdə keçirilən mövzuları əhatə edən suallar əsasında təşkil olunur. Kollokvimlar test üsulu formasında keçirilir.

Hər kollokviumda tələbənin bilikləri 10 ballıq sistem üzrə 0-10 bal arasında (maksimum 10 bal) qiymətləndirilir. Tələbə kollokviumda iştirak etmədikdə jurnalda "0" (sıfır) bal qeyd olunur.

**XVII. Yekun imtahan**

Fənnin tədrisinin sonunda bir dəfə yekun imtahan təşkil olunur. Tələbənin imtahandakı cavabı 0-50 bal aralığında (maksimum 50 bal) qiymətləndirilə bilər. İmtahan yazılı formada yaxud test qaydasında təşkil olunur. Fənn üzrə imtahan sualları yaxud testlər mühazirə mətnləri və məşğələ dərslərinin məzmununa uyğun olaraq tərtib edilir.

Yekun imtahanda tələbə minimum 17 bal toplamazsa, onda imtahana qədər yığılan ballar toplanmır, tələbə bu fəndən krediti qazanmır və onun fənn üzrə akademik borcu qalır. İmtahanın nəticələrinin qiymətləndirilməsi ilə bağlı tələbənin hər-hansı şikayəti olarsa, tələbə Universitetdə müəyyən olunmuş ümumi qaydalar əsasında Apellyasiya Komissiyasına müraciət edə bilər.

**XVIII. Fənn üzrə yekun qiymətləndirmə**

Fənn üzrə tələbələrin yekun biliyi 100 ballıq sistem üzrə qiymətləndirirlir. Balların maksimum miqdarı -100 baldır.

Yekun imtahandan sonra tələbənin fənn üzrə topladığı bütün ballar toplanır və yekun qiymət (bal) hesablanır.

| **İstiqamət** | **Ballar** | **Faiz** |
|---|---|---|
| İmtahan (final) | 50 | 50 % |
| Seminar (məşğələ) və ya laborator dərslərin nəticələrinə görə | 20 | 20 % |
| Ara imtahan | 30 | 30% |
| Davamiyyət | | |
| **Cəmi:** | **100** | **100 %** |

Fənn üzrə semestr ərzində (imtahana qədər və imtahanda) tələbənin topladığı balın yekun miqdarına görə onun yekun biliyi aşağıdakı kimi qiymətləndirilir:

51 baldan aşağı olduqda - “qeyri-kafi” – **F**

51-60 bal - “qənaətbəxş” – **E**

61-70 bal - “kafi” – **D**

71-80 bal - “yaxşı” – **C**

81-90 bal - “çox yaxşı” – **B**

91-100 bal - “əla” – **A**

Tələbənin topladığı yekun bal 51 baldan aşağı olduqda (yəni onun biliyi “qeyri-kafi” qiymətləndirildikdə) tələbə bu fəndən krediti qazanmır və onun fənn üzrə akademik borcu qalır.

**Tərtib etdi:**  **Faiq Əhmədov**